***ƏLİ SÜLEYMANOV***
***fəlsəfə doktoru***

# ZAQATALA FOLKLORUNDA. “SEYRAN” MƏRASİMİ



***2013-cü ildə Zaqatala “Azərbaycanın folklor paytaxtı” elan olunmuşdur. Qax, Zaqatala, Balakən rayonlarını əhatə edən Zaqatala bölgəsi zəngin etnik tərkibə malikdir. Burada əsrlər boyu azərbaycanlılarla yanaşı avarlar, zaxurlar, yengiloylar və həmçinin lak, ləzgi, osetin, çərkəz, kumık, tatar, yunan, polyak, rus və s. millətlərin nümayəndələri yaşamışdır. Bu xalqlar bir-biriləri ilə qaynayıb qarışmışlar, onların folklor nümunələri, adət-ənənələri də qarşılıqlı surətdə inkişaf etmişdir. Bölgənin folklor irsinə bu xalqların hər biri öz dəsti-xəttini, spesifikliyi, milli koloriti ilə seçilən xalq yaradıcılığı nümunələrini gətirmişdir. Toplanan folklor materialları içərisində bölgənin qədim tarixindən soraq verən əfsanələr – Mesedulher (avar.“Qızıl göl”), Malikul-hub (“Məlikin qəbri”), Kəsik baş (“Xuzanxın sehri”, “Car qazısının kəsik başı”, “Hacı Muradın kəsik başı”), Pəri qala, Kura Kali (yeng. “Qız daşı”), dini bayram və ayinlər – Kuda ko (avar.“Böyük bayram” - Ramazan bayramı), Qədir gecəsi, yağış diləmə mərasimləri (Ləillah gəzmək, Tsulitsi), təqvim bayramlari və mərasimlər böyük maraq doğurur.***

Uzun müddət yağış yağmadıqda avar kəndlərində yaşıl budaqların və ya gəndalaşın içərisinə otuzdurulan “yaşıl oğlanı” və ya “yağış keçisini” (tsadal tse) təxtirəvanda gəzdirir, adamlar bardaqlarla evlərdən çıxaraq onun üzərinə su endərirdilər. Yağışın yağması və ya kəsməsi üçün yengiloy kəndi Mosulda “Qız daşının” (“Kura Kali”) başını çevirirdilər. Həmin məqsədlə bölgədə uşaqlar Çömçə-Çömçə, Tsulitsi mahnılarını oxuyur, “Çömçə”dən başının və ya quyruğunun istiqamətini dəyişməsini xahiş edirdilər. Bu ayinlərdə, meteoroloji önəm daşiyan və Ana-Qız rəmzi olan Çömçə bürcü (Böyük Ayı bürcü – Taxt) kultunun izlərini görə bilərik.

Baharın gəlişi ilə avar kəndlərində Tsudul kassi (avar.“oddan tullanma”),

mayda – qızılğül açanda Varda ("qızılgül" ) , Toyole ("teq"-"gül") bayram ("Gül bayramı"), Hilma – "yelləncəklər bayramı" keçirilər, Eretstə (dağ zirvəsi – "dirək basdırılan yer"), Kili Katnaya ("təbil çalınan yer") yürüş edilərdi; el gəzintiləri Xinvaral (avar. "durnalar"), Qorqot (yeng. "durna") mərasimləri ilə müşayət olunardı. Qədim xalq gəzintisi mərasimi ilə icra olunan zaxur el bayramı – Seyran xüsusi diqqətə layiqdir. Hər il may ayının axırında iyulun əvvəllərində biçin və ot çalımı mövsümü qabağı dağların qoynunda yerləşən Yuxarı Suvagil kəndinin camaatı Seyrana çıxarmış. Bu bayram təkcə Suvagildə deyil, Zaqatalanın zaxur kəndlərinin əksərində (Qas, Qarqay, Əzgilli, Sabunçu və s.) qeyd olunardı. Seyran bayramı Sarıbaşdakı Tunqay-məlik şənliyi ilə qarışardı. Suvagil arana köçürüləndən sonra bu ənənə də yuxarıda qalmışdır. Belə imiş qayda: səhər-səhər kəndin kovxası car çəkər, kəndin cavanları təyin olunmuş yerə – Eraya toplaşar, oğlan və qızlar çala-oxuya iki günlük azuqə ehtiyatı ilə səfərə çıxarmışlar. Seyran yolu iki sutka davam edərmiş. Bu müddət ərzində 32 dağ zirvəsi, yaylaq və düzəndən keçərlərmiş. Bu şənlikdə sümsülər, qara zurna, tampur, nağara və s. yerli musiqilər səslənərmiş. Suvagil Kənd müəllimi, qocaman söz ustası, folklor həvəskarı Seyid Məmmədovun şeirində bu maraqlı bayramın təsviri öz real və ətraflı əksini tapmışdır. Bu adətin real təsviri milli çalarlığı ilə burada öz layiqli əksini tapmışdır.

**SEYRAN**

***Eraydan car çəkdi kəndin kovxası***
***Xırmana cəmlənsin var erqan dedi.***
***Çıxarsın qəlblərdən qəm, kin libası***
***«Başlanır erkəndən bu «Seyran» dedi.***

***Çayların səsini çalğılar boğdu,***
***Sümsülər bəmsə də, zurnalar çağdı.***
***Elə ki, o dəmdə ilk günəş doğdu,***
***«Başladı yürüşə yüz cavan» dedi.***

***Qara çaydan keçdi Dəyirmana sarı,***
***Endərmədən qalx, Dikbaştalaya barı,***
***Yamacda atağardı, düzdə də darı,***
***«Düşməsin buraya bir heyvan» dedi.***

*Kibitdən keçəndə çox düşündülər,*
*Bəzisi çırmandı, ya hoppandılar*
*Sürüşgənliyi yıxılanda qandılar*
*«Maral seldən qalıbdı viran» dedi.*

*Göyçətəpə çatdı Qoruğu keçib*
*«Yaylıq atdı» oynadı sevəni seçib,*
*Sağ-solda elə bil güldən dən biçib,*
*«Yenə olacaqdır açılan» dedi.*

*Ayğır bulaq, Əhəng dərə, Daqalar,*
*Qarı dərə, Həlmantala, vannalar,*
*Kemend, Yelqadıq, Ədillinin dərələr*
*«Qaltak şirtin olmadı heç sayan» dedi.*

*Qum başına çatdı səhər çağında,*
*Ləkitbaş, Kartaş da qaldı sağında,*
*Qala sirt, qabaqda Qumbaş iki solunda,*
*Düz saydım, heç yoxdur bir yalan» - dedi.*

*Qax yaylağa qalxdıq, yanı Agkəsək,*
*Mənzil aldı Yağayırı keçərək.*
*Yol uzanır, sağ-solunda gül-çiçək,*
*«Kümüpa, Korakana gəl boylan» dedi.*

*Qarabulaq oldu mənzilgah yeri,*
*Kərimdərə, Laşqar çıxır irəli.*
*Olsa da hər tərəf dərə-təpəli*
*«Yetişir moruqdan lap kalan» dedi.*

*Barkutan quzeydir, dalı Uçtəpə*
*Dərədə Pirəli və Nəsibtəpə*
*Suyu bol, otu bol, toxlusu körpə,*
*«Çıqbaşda otarır ər çoban» dedi.*

*Çox çətindir, Tatarkeçməz cığırı,*
*Deyirlər ki, uçurandır ayqırı.*
*İncidiblər gözü yaşlı fağırı,*
*«Geriyə qayıdıb hər qalan» dedi.*

*Çətinliklə keçdik Parsidanın yalına,*
*Boylan dedik Qanaxay axarına.*
*Qaraqaya düşdü göz baxarına*
*«Çox olub Yolsuzdan ov qovan» dedi.*

*Gecələdik Kutanayın başında,*
*Yarı yol qalmışdı yenə qarşıda*
*Üzü gülür yarın da, yoldaşın da*
*«Çox yatma, o başdan cəld oyan» dedi.*

*Davam etdik Uzundərəylə yolu*
*Suvagilbaşda yağdı azca dolu*
*İslandı qızların araqçın donu,*
*«Soyuqdan ürkərmi heç ceyran» dedi.*

*Yolumuz dolandı Güney tərəfə*
*Dedebat arxada qalır hər dəfə*
*Xunar, Qarnay qoy gəlsinlər insafa*
*«İtləri qovunca bir dayan» dedi.*

*Otlayır Qoşunda bir ilxı atlar,*
*Çoxu berzdir, arı o biri otlar*
*Buğday arxada, əkilib buğda sortlar,*
*«Sürülüb vaxtilə çox dövran» dedi.*

*Addımladıq Qaraqaya dalından,*
*Qorxuludur, baxmaq olmur yalından.*
*Mamayoku, Laçınnacıq yolundan,*
*«Ötüşəndə, yatmalı bir an» dedi.*

*Qarqartala, Dağətək, Mahmudbulaq,*
*Zaylağ, Şuaynatan, Patturibulaq,*
*Cum Muh, Yal, Dəvəli və bir neçə otlaq*
*«Olurdu il boyu qoruyan» dedi.*

*Kazannıpırıdən endilər Seyrantapa*
*Yığılıb hamısı oldular topa*
*Elə ki çalğıdan bir səs qopa*
*«Əks-səda yayıldı hər yana» dedi.*

*Uzuntala, İsaynaxu, Naqbiştala*
*Quzey, Qaray, Topyub sanki bir qala*
*Hubulna tapdan çıxanda Lar yala*
*Baxtın həvaya çox heyran dedi.*

*Dikgüneydən enirdilər Xırmana*
*Seyran yolu burda yetişir sona*
*El, camaat «Əhsən» dedilər buna*
*«Olmayıb bu yürüş çox asan» dedi.*

*Müharibəylə batdı adət-ənənə,*
*Çıxa bilmədilər bir də bir yanə*
*Əlli beşdən köç saldılar arana*
*«Qaldı Köhnə Suvagil bir viran» dedi.*

*Yeni kənddə çox çəkdilər əziyyət*
*Tez düzəldi hər sahədə vəziyyət*
*İndiki cavanlar etsələr niyyət*
*«Təkrar etmək olar bu, «seyran» dedi*

*41-də dedilər çoşuqun biri*
*«Seyran»da yozdur heç sənin yeri*
*90-da olubdur Seyid Nurani*
*Alqışlansın səni hər sevən dedi.*

Bu şeirdə adları çəkilən onlarla dağ, yer, keçid, çay, düzən, yaylaq və s. adlar yəqin ki, indi unudulub. Əllinci illərdə kəndin arana köçürülməsi ilə unudulan bu ənənənin davam etdirilməsi arzusunu şair belə ifadə edir:

*Müharibəylə batdı adət-ənənə,*
*Çıxa bilmədilər biri də Seyrana.*
*Əlli beşdən köç saldılar arana,*
*«Qaldı köhnə Suvagil viran» dedi.*

*Yeni kənddə çox çəkdilər əziyyət,*
*Əməklə düzəldi, hər sahədə vəziyyət.*
*İndiki cavanlar etsələr niyyət,*
*«Təkrar etmək olar bu seyran» dedi.*

**SUMMARY**

**"Seyran" Ceremony in Zagatala Folklore**

In the presented paper Zagatala folklore, its characteristic features, ceremonies have been analyzed. Zagatala was "Azerbaijan Folklore Capital" in 2013. In Zagatala together with Azerbaijanis there are other ethnic groups and those ethnic groups have also their folklore traditions. In the article the ceremonies of Zagatala folklore have been mentioned and one ceremony "Seyran" has been analyzed widely.


